**Azərbaycan ədliyyəsinin keçdiyi bir əsrlik tarixin ən mühüm məqamları ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Öz tarixini Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlayan Ədliyyə Nazirliyi 23 ay sonra onun süqutu ilə ömrünü başa vurmuş və yerinə Xalq Ədliyyə Komissarlığı yaranmışdır. Lakin bu da son olmamış, ümumilikdə, 1970-ci ilə qədər Ədliyyə Nazirliyi üç dəfə ləğv edilmişdir. Məhz dövrünün görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra 1970-ci il oktyabrın 27-də Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi yenidən təsis edilmiş və milli ədliyyə tariximizin yeni mərhələsi başlanmışdır.**

# Ədliyyədə islahatlar vətəndaşların hüquqlarının yüksək təminatına xidmət edir

Azərbaycan dövlətçiliyinin inkişaf tarixində də yeni mərhələ kimi qalan bu dövrdə ədliyyə orqanlarının sabit fəaliyyəti təmin edilmiş və onun gələcək inkişafı, milli kadrların yetişməsi üçün əlverişli zəmin yaranmışdır. Ədliyyə Nazirliyinin mühüm bir qurum olaraq müstəqil hüquq siyasətinin formalaşmasında iştirakı isə, əlbəttə, Azərbaycanın XX əsrin sonunda yenidən müstəqillik qazanmasından və xüsusilə, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra başlamışdır.

Xatırladım ki, 1991-ci ildə Azərbaycanın müstəqilliyi elan olunduqdan sonrakı ilk illərdə müstəqil dövlətçiliyin normativ-hüquqi aktlarının qəbul edilməsi prosesi çox ləng gedirdi. Yaxın tarix də aydın göstərir ki, 1993-cü ilin birinci yarısına qədər müasir müstəqil dövlətin hüquqi bazasının formalaşdırılması istiqamətində elə bir ciddi addım atılmamışdı. Qeyd etdiyimiz bu dövrdə müstəqil Azərbaycanın əsas hüquqi sənədi olan Azərbaycan Respublikasının Konstitutsiyası barədə belə, ümumiyyətlə, söhbət getmirdi.

Lakin 1993-cü ildə, ilk növbədə, xalqını, ölkəsini, müstəqil Azərbaycan dövlətçiliyini xilas etmək missiyası ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev qısa bir zamanda qarşıda duran vəzifələri böyük siyasi ustalıqla yoluna qoyaraq dünyəvi dəyərlər əsasında müstəqil dövlət quruculuğuna başladı. Bu işlər və həyata keçirilən vəzifələr sırasında 1995-ci il noyabrın 12-də referendum–ümumxalq səsverməsi ilə müstəqil Azərbaycanın ilk konstitusiyasının qəbul edilməsi gələcək hüquqi islahatlar üçün çox mühüm bir bazisə çevrildi. Ümummilli lider bu hadisənin mahiyyətini açıqlayaraq demişdir: "Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün əsaslar yaratmış, bütün təminatları vermişdir. Bizim borcumuz bu təlimatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir".

Hüquqi islahatlar dövlətçiliyin formalaşmasının bir çox mühüm istiqamətlərinin, vətəndaş cəmiyyətinin tamamilə inkişaf etməsinin təmin olunmasını nəzərdə tutduğu üçün ümummilli lider Heydər Əliyev bu sahəni xüsusilə diqqətdə saxlayır və islahatların mərhələli şəkildə, ləngimədən həyata keçirilməsinə çalışırdı. Ulu öndər hüquqi islahatların qarşısında duran vəzifələrin mahiyyətini – ölkədə qanunların aliliyinə əsaslanan möhkəm və etibarlı birgəyaşayış qaydalarının və sabitliyin bərqərar olunması ilə bağlı olan çoxşaxəli mürəkkəb problemlər olduğunu bilirdi. Bu problemlərin həlli isə insan hüquqları uğrunda çoxəsrlik mübarizədə əldə olunan dünya hüquq mədəniyyətinin əsas mənbəyinə gedib çıxmağı tələb edirdi.

Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu vəzifələrinin davamlı şəkildə həyata keçirilməsi məqsədilə 1996-cı il fevralın 21-də ümummilli liderin qərarı ilə yaradılmış Hüquqi İslahatlar Komissiyası da üzərinə düşən vəzifələri uğurla həll etmişdir. Komissiyanın beynəlxalq ekspertlərin iştirakı ilə Avropa standartlarına uyğun hazırladığı Cinayət, Cinayət-Prosesual və Mülki Prosesual məcəllələrin, "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Notariat haqqında", "Bələdiyyələrin statusu haqqında" və bir çox digər qanun layihələrinin Milli Məclis tərəfindən qəbul edilməsi ilə milli qanunvericilik sistemimiz köklü şəkildə yeniləşdi və müasirləşdi.

Ulu öndər yaxşı bilirdi ki, dövlətin gücü heç də "güc strukturlarının" sayı və səlahiyyətləri ilə ölçülmür. Əsl həqiqətdə sabit dövlət, hər şeydən əvvəl qanunların aliliyinin əsaslı şəkildə qalib gəldiyi ölkədə ola bilər. Ona görə də qısa müddət ərzində ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş məhkəmə-hüquq islahatı nəticəsində Azərbaycanda bütün hüquqi təsisatların fəaliyyətini tənzimləyən yeni mütərəqqi qanunlar, məcəllələr, qanunvericilik aktları qəbul edilməyə başlandı.

Dövlətçilik tarixi əsrlərlə ölçülən ölkələrin təcrübəsi göstərir ki, hüquqi dövlətin qurulması möhkəm ədliyyə sisteminin formalaşdırılması ilə sıx bağlıdır. Əsas vəzifəsi dövlətin hüquq siyasətini formalaşdırmaq və həyata keçirməkdən ibarət olan Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ölkəmizdə açıq və təhlükəsiz cəmiyyətin yaradılmasında mühüm rol oynayan bir dövlət təsisatına çevrildi.

Ümummilli lider Heydər Əliyevin ədliyyə orqanlarına göstərdiyi diqqət və qayğı sonrakı mərhələdə Prezident İlham Əliyev tərəfindən də davam etdirildi. Dövlət başçısının bu sahəyə xüsusi önəm verməsi, həm də ondan irəli gəlir ki, son illər qəbul edilmiş qanunvericilik aktları ilə ədliyyə orqanlarının fəaliyyət istiqamətləri xeyli genişləndiriləræk, bu qurumun üzərinə yeni vəzifələr qoyulmuşdur. Məhz bu, əsas tutularaq, Prezident İlham Əliyev tərəfindən hələ 2006-cı il aprelin 18-də nazirliyin normativ-hüquqi bazasını təkmilləşdirmək məqsədilə "Azərbaycan Respublikası Ədliyyə Nazirliyi haqqında Əsasnamə" təsdiq olundu. Nazirliyin yeni fəaliyyət istiqamətlərini, hüquq və vəzifələrini əks etdirən və bütün ədliyyə sistemi üçün müstəsna əhəmiyyətə malik olan bu sənəd Azərbaycan ədliyyəsinin qanunvericilik bazasının sürətli inkişafına böyük təkan verdi.

Hazırda möhkəm dövlət hakimiyyətinin əsas şərtlərindən biri vahid hüquqi məkanın formalaşdırılmasıdır. Başqa sözlə, bu, dövlətin ərazisi çərçivəsində hüquqi qüvvəsi nəzərə alınmaqla tətbiq edilən və bir-birinə uyğun bütün hüquq normalarının məcmusudur. Vahid hüquq məkanının təmin edilməsi kimi mühüm vəzifənin həyata keçirilməsi isə əsasən Ədliyyə Nazirliyinin üzərinə düşür. Bu, təsadüfi deyil. Çünki nazirlik qanun, fərman və digər sənədlərin layihələrinə rəy verir, qanunvericilik aktlarının layihələrini hazırlayır, mərkəzi icra hakimiyyəti və digər orqanların normativ-hüquqi və normativ xarakterli aktlarının ekspertizasını keçirir.

Dövlətin əsas təsisatlarından biri kimi, Ədliyyə Nazirliyinin fəaliyyətinin daim təkmilləşdirilməsinin bariz bir nümunəsi də 17 avqust 2006-cı ildə "Ədliyyə orqanlarının inkişafı haqqında" Fərmanın imzalanması, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" yeni Qanunun, habelə Azərbaycan ədliyyəsinin inkişafına dair ayrıca Dövlət Proqramının qəbul edilməsidir.

Bütün bunlarla yanaşı, nazirliyin fəaliyyətinin yeni dövrün tələbləri səviyyəsində təşkili məqsədilə bir sıra yeni idarələr də yaradılmışdır. "Ədliyyə orqanlarının inkişafı haqqında" Fərman əsasında bölgələrdə regional ədliyyə şöbələrinin idarələrinin və rayon (şəhər) qeydiyyat şöbələrinin yaradılması əhalinin bu orqanlara müraciət imkanlarını asanlaşdırmış, habelə regionların sosial-iqtisadi inkişafına, xüsusilə yerli bölgələrdə hüquqşünasların işlə təmin olunmasına müsbət təsir göstərmişdir.

Ədliyyə strukturlarında həyata keçirilən islahatlardan bəhs edərkən, kadr seçimindəki şəffaflığı da xüsusi qeyd etmək lazımdır. Kadrlarla aparılan işin mühüm hissəsi kimi işçilərin peşəkarlıq səviyyəsinin yoxlanılması və qiymətləndirilməsi, onların tutduqları vəzifələrə uyğunluğunun müəyyənləşdirilməsi üçün keçirilən attestasiyalar ədliyyə əməkdaşlarının məsuliyyətinin artırılmasında çox böyük rol oynayır.

Nazirlik tərəfindən ədliyyə orqanlarında aparılan məqsədyönlü və mühüm islahatlar sırasında idarəçilikdə müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq olunmasına, əhaliyə yeni elektron xidmətlərin göstərilməsinə xüsusi önəm verilir. Azərbaycan Prezidentinin İKT sektorunun inkişafı çərçivəsində dövlət orqanlarında elektron xidmətlərin göstərilməsinə dair fərmanına uyğun olaraq hazırda ədliyyənin bütün sahələrində elektron xidmətlərin, müasir texnologiyaların və innovasiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Məsələn, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar xüsusi "Elektron notariat çantası" hazırlanıb. Elektron notariat informasiya sisteminə birbaşa çıxışı olan bu çanta vasitəsilə istənilən yerdə hər hansı notariat hərəkətini aparmaq və sənədləri çap edib, təqdim etmək mümkündür.

Bu gün yalnız Azərbaycanda mövcud olan elektron ədliyyə köşkləri barədə xüsusi danışmaq olar. Video-əlaqə vasitəsilə 24 saat ərzində notariat xidmətlərinin göstərilməsinə və müvafiq sənədlərin əldə edilməsinə imkan verən belə köşklər artıq Heydər Əliyev adına Beynəlxalq Hava Limanında quraşdırılaraq istifadəyə verilib. Sərhəd-keçid məntəqələrində, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılması nəzərdə tutulan bu cür köşklər vasitəsilə təxirə salınmayan hallarda məsafədən notariat hərəkətləri aparmaq mümkün olacaq. Növbəti yenilik isə Azərbaycanın məhsulu olan mobil notariat qovluğudur. Müvafiq proqramı telefona yükləməklə vətəndaşın elektron notariat kabineti yaradılır və notariat fəaliyyəti ilə bağlı bütün məlumatların yüklənməsi reallaşdırılır.

Bu sıradan olan yeniliklərdən "Vətəndaşlıq vəziyyəti aktları", "Elektron notariat" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemlərini də göstərmək olar. Xeyli müddət əvvəl istifadəyə verilmiş notariat kontorlarının ofislərini vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sistemi notariat hərəkətlərinin rəsmiləşdirilməsini xeyli sadələşdirmişdir.

Bütün bunlarla yanaşı, ötən müddət ərzində Ədliyyə Nazirliyi ölkə vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər, habelə vətəndaşlığı olmayan şəxslər barəsində dövlət informasiya ehtiyatının formalaşdırılması məqsədi ilə Əhalinin Dövlət Reyestrini tam formalaşdırmışdır. BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirilmiş layihə çərçivəsində "Əhalinin Dövlət Reyestri" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi yaradılmış və 75 il ərzində vətəndaşlıq vəziyyətini müəyyən edən 17 milyondan çox akt qeydi 6 il çəkən nəhəng iş sayəsində elektron formata keçirilmişdir.

Ədliyyə Nazirliyinin rəhbərliyi tərəfindən rayon (şəhər) qeydiyyat şöbələrinin fəaliyyətinin daha da təkmilləşdirilməsinə, işin müasir tələblər səviyyəsində təşkilinə daim xüsusi diqqət yetirilir, maddi-texniki baza yaxşılaşdırılır, infrastruktur müasirləşdirilir. Təsadüfi deyil ki, son illər respublikamızın müxtəlif bölgələrində qeydiyyat şöbələrinin binalarının əsaslı təmir olunması, müasirləşdirilməsi, həmçinin yeni ədliyyə binalarında qeydiyyat şöbələri üçün zəruri infrastrukturun yaradılması işin səmərəliliyinin artırılmasına, vətəndaşlara daha keyfiyyətli hüquqi yardımın göstərilməsinə xidmət etmişdir.

Onu da qeyd edək ki, akt qeydlərinin hazırda işlənilən nümunələrinin əvəzinə onların optik oxunmasına və məlumatların elektron şəbəkə vasitəsilə ötürülməsinə imkan verən yeni formaları və müvafiq proqram təminatı tərtib olunmuşdur. Eyni zamanda, doğumun qeydiyyatının bilavasitə tibb müəssisələrində səyyar qaydada aparılması, nikahın təntənəli qeydiyyatı təşkil olunmuş, qeydiyyat prosedurunu asanlaşdıran, eləcə də Azərbaycan adları, onların mənası və izahı və s. barədə informasiya almaq üçün geniş axtarış sisteminə malik elektron xidmətlər istifadəyə verilmişdir.

Əlbəttə, hüquqi dövlətin mahiyyəti və məqsədi sadəcə hüquqların aliliyi, onların reallaşdırılması üçün müvafiq mexanizmlərin varlığı yox, həqiqətdə insanın bu dövlətin və bütün cəmiyyətin diqqət mərkəzində olmasıdır. Bu gün Prezident İlham Əliyevin də dövlət strukturları, burada çalışan məmurlar qarşısında qoyduğu əsas tələblərdən biri Azərbaycan vətəndaşına vicdanla, məsuliyyətlə xidmət etməkdir. Aparılan islahatlar sayəsində daim yeniləşən ədliyyə sistemində qazanılan nailiyyətlər onu göstərir ki, hazırda Azərbaycan vətəndaşı bütün dövlət təsisatları kimi, Ədliyyə Nazirliyinin də diqqət mərkəzindədir. Çünki öz tarixinin 101-ci ilini qeyd etməyə hazırlaşan Azərbaycan ədliyyəsinin əməkdaşları ölkədə insan hüquq və azadlıqlarının etibarlı təmin olunmasında, demokratik hüquqi dövlət quruculuğunun daha da mükəmməlləşməsi işində üzərlərinə düşən vəzifələri dərindən dərk edir və buna səfərbər olurlar.

**Firuzə NƏBIYEVA,**
**Nəsimi Rayon Qeydiyyat Şöbəsinin rəisi vəzifəsini icra edən**

Xalq qəzeti.- 2019.- 21 noyabr. S. 6.